AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 185-190
https://doi.org/10.59849/2664-5432.2026.2.185

Arzu NİFTƏLİYEVA*

İNGİLİS VƏ AZƏRBAYCAN LİNQVOKULTUROLOJİ MƏKANINDA "TOY" (WEDDING) KONSEPTİ

XÜLASƏ

Bütün xalqlar üçün ortaq olan əsas anlayışlardan biri "toy" məfhumudur. Toy prosesinə əsasən qızbəyənmə, elçilik, nikah, toy mərasiminin özü və digər mərhələləri daxildir. Bu mərhələlər müxtəlif xalqlarda ümumi xüsusiyyətlərə malik olsa da, hər bir konkret linqvokulturoloji məkanda özünəməxsus xüsusiyyətlərlə səciyyələnir.Azərbaycan və ingilis toy mərasimlərinin müqayisəli təhlili məqsədin (ailə qurmaq) oxşarlığına baxmayaraq, bu mərasimlərin hər biri özünəməxsus milli xüsusiyyətlərə malik olduğunu göstərir.

Açar sözlər: *toy, konsept, linqvokulturologiya, nişan, nikah, qızbəyənmə.*

"Toy" dedikdə insan şüurunda bütöv bir mərasim canlanır. Onun ayrı-ayrı elementləri – slotları isə daha konkret məna daşıyır və zaman keçdikcə dəyişə bilir.

"Toy" konseptini mümkün qədər dolğun əks etdirən freym strukturu və slotları iki dilin materialı əsasında müqayisəli şəkildə nəzərdən keçirildikdə, ilk nəzərdən yaxınlıq müşahidə olunsa da, subkonsept, sektor, aspekt və s. Səviyyələrdə ciddi fərqlərin olduğu, eləcə də dil səviyyəsində (leksika, qrammatika və s.) Oxşarlıq nümayiş etdirən vahidlərin arxasında əhəmiyyətli linqvokulturoloji fərqlərin dayandığı üzə çıxır.

Azərbaycan və ingilis linqvomədəni mühitində formalaşmış, sosial baxımdan müqayisə edilə bilər linqvokulturemləri "toy" mərasimi timsalında təhlil edərək onlar arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirək.

Toy bir mərasim kimi özündə bir sıra "slot"ların olmasını nəzərdə tutur. Əvvəlcə Azərbaycan toyunun mərhələlərini, tərkib hissələrini qısaca nəzərdən keçirək.

Azərbaycan toy adətləri tarixən uzun inkişaf yolu keçmiş, zaman keçdikcə yeni çalarlar kəsb etmiş və müəyyən xüsusiyyətlərini, çalarlarını və hətta bir vaxtlar mütləq olan tərkib hissələrini itirmişdir. Toy mərasimi evlənmə ilə bağlı adətlərin əsas tərkib hissəsini təşkil edir və bu adətlərin kulminasiya nöqtəsi hesab olunur. Bu mərasim toy adətlərini iki hissəyə bölür – toydan əvvəlki və sonrakı. Toy dedikdə insan şüurunda hazırda

* Azərbaycan Dillər Universiteti, Avropa dilləri kafedrası, baş müəllim.
Email: arzuniftaliyeva01@gmail.com

bilavasitə mərasimin özü canlanırsa, amma "evlənmə" ilə bağlı olan və bunu həyata keçirənlərin şüurunda – konseptosferində – toy adətləri toplum şəkildə saxlanılır.

"Toy" – nikahın qeydə alınması ilə əlaqədar mərasim. Matriarxat dövründə sadə mərasimdən ibarət idi. Toy nikahın rəsmiləşmə mərasimi kimi patriarxat dövründə, təknikahlılıqbərqərar olduqdan sonra xüsusilə geniş yayılmışdı. Bütün xalqlarda Toy mərasiminin əsas şərti qızın (gəlinin) valideynin evindən oğlanın (bəyin) evinə köçməsidir… Müxtəlif xalqların toy adətlərində ümumi, oxşar cəhətlər daha çoxdur.

Bununla yanaşı ayrı-ayrı xalqların ayinliyi, özünəməxsusluğu ilə fərqlənir. "Ənənəvi Azərbaycan Toylarının bir-birini əvəz edən müxtəlif mərhələləri (qız bəyənmək, elçilik, nişan, toy) hər mərhələnin də özünəməxsus adət şəkli almış qayda-qanunları var" [Ensiklopediya, 1986: s. 303]. Bu qayda-qanunlar əsas mərhələlərdə daha konservativ olsalar da, onların hər birində dövrlə və ictimai proseslərin təsiri ilə müəyyən dəyişikliklər baş verir. Bunu toyla bağlı (burada geniş mənada evlənmə prosesinin bütün mərhələləri nəzərdə tutulur) qayda-qanunların zamanda təkamülü nəzərdə tutulur. Müxtəlif dövrlərdə bu qayda-qanunların necə olmasını və necə dəyişməsini folklor və yazılı ədəbiyyat nümunələrindən görmək olar. Bu mərhələlərin bəzilərinə qısa nəzər salaq.

Qızbəyənmə.

Azərbaycanda evlənmək vaxtı çatanda oğlanın qohumları seçim edir, müxtəlif yollarla qız haqqında məlumat toplayır, onu görüb dəyərləndirir və yalnız bundan sonra elçilik etmək qərarına gəlirlər. Məsələn, Üzeyir Hacıbəylinin "Arşın mal alan" əsərində bunun bariz nümunəsini görürük. Əsərin qəhrəmanı Əsgər evlənmək fikrinə düşəndə xalası ev-ev gəzib qız seçmək fikrində olduğunu bildirir və:

Çadramı salam başıma,
Üz gözümü bəzərəm.
Gedib sənə qız axtarıb,
Hər tərəfi gəzərəm.

Bəyin, xanın və tacirin
Qızlarını düzərəm.
Çəməndəki o güllərin
Ən gözəlin üzərəm [Hacıbəyli, 2005: s. 292]

Bu, qızbəyənmənin yalnız bir yoludur. Qız qohumlar və ya qonşular arasında seçildikdə bu proses nisbətən asanlaşır, çünki yad yerdən qız seçiminin öz fəsadları olub. Bunu bəzi atalar sözləri və el məsəllərindən də görmək olar ("Saçlı qızı göstərib keçəli veriblər"). Buna görə də seçimin diqqətlə aparılması məsələsi ön plandadır. Buna görədir ki, Aşıq Ələsgər "Qərib-qürbət eldən qız sevən oğlan» şeirində qızın haqqında məlumatı

yaxın qonşusundan almağı tövsiyə edir və "Yaxın qonşusundan soruş halını deyir" [Əsləsgər, 1973: s. 202].

Qızbəyənmə ilə bağlı qədim adətlərdən biri də "göbəkkəsmə" olmuşdur. Dastanlardan və nağıllardan gördüyümüz kimi, iki nəfər – dost, yoldaş, qohum və s. Birinin oğlu, digərinin qızı olanda onları ad edirdilər və uşaqlar həddi-buluğa çatanda onları evləndirirdilər. Gördüyümüz kimi, uşaqların razılığını soruşmadan onların taleyini həll edirdilər. Bu adətin zamanda necə dəyişməsini "Əhməd haradadır?" Filmindən görmək olar. Valideynlər uşaqları dünyaya gələndə ad etsələr də, onlar öz seçimlərini etmək istəyirlər. Valideynlərlə uşaqlar arasında münaqişə də bu zəmində başlayır.

İndi də ingilis toy adətinə, onun ilkin mərhələsindən – qızbəyənmədən başlayaraq nəzər salaq.

XIX əsrə qədər gənclər üçün evlənmə qərarını onların valideynləri və ya hamiləri verirdilər. Toyu da onlar təşkil edirdilər. Özü də bu qərar qəbul edilən məqam üçün bəy və gəlin çox vaxt bir-birini ümumiyyətlə tanımırdılar. Çox vaxt kəbin haqqında razılaşma gələcək bəy və gəlinin yaşı yeddiyə çatmamış qəbul edilirdi. 3 yaşından yeddi yaşına qədər uşaqları hətta nişanlayırdılar. Lakin ingilis linqvokulturoloji konsepto-sferindəki "nişanlama" Azərbaycan "nişanlama"sında mahiyyət etibarilə fərqli olmuşdu. Bunun da əsas səbəbi cəmiyyətdəki mövcud reallıqlarla bağlı idi. Belə ki, ingilislərdəki belə "nişanlamadan" sonra "ər və arvad" müəyyən yaşa çatdıqdan sonra birgə yaşamağa başlayırdılar, yəni bu "nişan" ("engagement") faktik olaraq "nikah" funksiyasını da yerinə yetirirdi. İngilis linqvokulturoloji məkanında əsas məsələ valideynlərin və ya qəyyumun seçim edib cehizin razılaşdırılması üzərində qurulduğundan, seçimdən "nişan"a, əslində isə faktiki olaraq "nikaha" qədər ayin mərhə-lələrinə görə elə böyük bir "yol" keçilmirdi

"Nişan" Azərbaycan toy mərasiminin əsas mərhələlərindən biri olsa da, ingilis mərasimindəkindən fərqlənir. "Nişan" dedikdə Azərbaycan konseptosferində "qızbəyənmə", "qızgördü", "xəbərgöndərmə", "kiçik elçilik" ("həyəalmaq") mərhələlərindən sonra təntənəli surətdə üzük gətirib oğlanla qızı "adaxlamaq" məqsədi güdən mərasim nəzərdə tutulur. Buna oğlan tərəf ciddi hazırlaşır. Nişanda qız üçün lazım olan geyim, zinət əşyaları və s. Gətirilir. Bunları gətirmək üçün xonçalar bəzədilir. Nişan mərasiminin ayinləşmiş müəyyən atributları və hərəkətləri, davranış ardıcıllığı mövcuddur. Hazırkı dövrdə bu atributlarda müəyyən dəyişiklik-lər müşahidə olunsa da, yenə də onların əsas hissələri və mərhələləri ayini funksiyalarını saxlayırlar.

İngilis linqvokulturoloji məkanında ilkin olaraq belə mürəkkəblik olmadığından, ondakı dəyişikliklər bir qədər fərqli olmuşdur. Yuxarıda "nişan" haqqında deyilənlərə əlavə olaraq göstərək ki, XVII əsrdə

İngiltərədə kəbin məsələsində müəyyən məhdudiyyət qoyuldu. Hakimin qərarı ilə əgər evlənən tərəflərdən birinin yaşı 7-dən aşağı olarsa, həmin izdivac həqiqi sayılmırdı. Əgər hər ikisinin yaşı 7-dən yuxarı olarsa, uşaqlar ər və arvad ola bilərdilər. Bunun üçün onlar bir-birini ər və arvad adlandırmalı və qucaqlaşıb öpüşməli idilər. Əlbəttə, uşaqlar yetkinlik yaşına çatana qədər öz valideynləri ilə yaşayır, amma evli hesab olunurdular. 1653-cü ildən kəbinin rəsmi statusu üçün mülki kəbin mərasimi tələb olunmağa başladı və bu da ingilis "nişan" konseptinin məzmununda dəyişikliyə səbəb oldu – "nişan" sonradan qeydiyyatdan keçdikdən sonra rəsmi nikaha çevrilirdi. Bunun üçün kilsədən arayış gətirmək tələb olunurdu.

1753-cü ildən yalnız xüsusi qeydiyyatı olan anqlikan kilsəsində kəsilmiş kəbin qanuni hesab olunurdu. 1990-cı ilə qədər yalnız ailə quranların heç olmasa birinin yaşadığı qraflıqda kəbin kəsdirmək olardı.

Ənənəvi Azərbaycan cəmiyyətində dini nikah mərasimi molla tərəfindən həyata keçirilirdi və nikah bu yolla rəsmiləşdirilirdi. Müasir hüquqi sistemdə isə nikahın dövlət qeydiyyatına alınması onun hüquqi qüvvəyə minməsi üçün əsas şərtdir.

Toyun vaxtı:

Qədim dövrlərdən İngiltərədə toy məhsul yığımından Milad bayramına qədər keçirilirdi. Bunun əsas səbəbini həmin dövrdə ərzaq məhsullarının bolluğu ilə izah etmək olar. İngiltərədə hətta belə bir məsəl də var: sentyabrdə evlənənlərin birgə həyatları xoş və zəngin olur.

Azərbaycanlılar da adətən toyu kənd təsərrüfatı işləri başa çatdıqdan və məhsul yığıldıqdan sonra edirdilər. Lakin bu yalnız payız vaxtı ilə məhdudlaşmırdı. Maldarlıqla məşğul olanlar yayda yaylağa, qışda qışlağa köçdüklərindən, bu təsərrüfatçılıq sahəsi ilə məşğul olanlarda toy yaylağa qalxandan sonra edilə bilirdi, amma bildirmək lazımdır ki, toyun vaxtı mütləq konkret fəsillə bağlı deyildi.

Toyun müddəti barədə folklor nümunələrindən müəyyən məlumat almaq olur. Məsələn, dastanlardan çıxış etsək, görərik ki, "qırx gün, qırx gecə toy elədilər" ifadəsi tez-tez işlədilir. Aydın məsələdir ki, 40 gün toy edənin buna maddi imkanı da olmalıdır və bu müddəti yuxarı təbəqələrə aid etmək olar. XX əsrin əvvəlləri üçün bu müddət 2-3 gün təşkil edirdi (toy axşamı, səhərisi gün xonçanın aparılması və xınayaxdı, gəlinin gətirilməsi). "Aşıq Ələsgərin Qarabağa toy səfəri" dastanının sonunda belə bir əlamətdar ifadə var: "Camaat 15 gün Aşıq Ələsgəri buraxmadı, o birbirinin dalıncax altı toy elədi, sonra şad-xürrəm öylərinə qayıtdı" [Ələsgər, 1973: s. 246]. Toyun müddətinin toy sahibinin imkanlarından asılılığını elə Aşıq Ələsgərin dastanlarından da görmək olar. "Aşıq Ələsgərlə Dəli Alı" dastanında Dəli Alının bacısı oğlunun toyu ilə bağlı bildirilir ki, aşıqlar toyda 15 gün olublar, toy hələ bir 10 gün də davam edəcəkdi.

İngilis adətlərinə görə, gəlinə nal şəklində hazırlanmış qolbaq hədiyyə edilirdi. Hesab olunurdu ki, bu, xoşbəxtlik gətirir. Gəlin kilsəyə daxil olanda onun üstünə-başına taxıl səpirdilər. İngiltərədə hazırda gəlinin bəylə birlikdə üst-başına nəsə səpirlər, özü də kilsədən çıxanda və taxıl deyil, rənglənmiş düyü, konfetti, qızıl gül ləçəkləri və s.

Azərbaycan toyunda da gəlin gətiriləndə bəy və onun dostları gəlini başına şirniyyat səpirdilər.

Azərbaycanda gəlinə zinət əşyaları və gəlinlik paltarı toyun ikinci günü xonçada göndərilirdi. Bu zinət əşyalarına üzük, sırğa, silsilə (sinəbənd), qolbaq daxil idi.

Toy adətən günorta olur və bundan sonra qonaqlar nahara dəvət olunurlar. Bu, nahar "toy səhər yeməyi" adlanır.

Azərbaycan toylarında da qonaqlara yemək verilirdi və bu məclisdə qonaqların qabağına ən ləziz milli xörəklər qoyulurdu.

"Toy"un mərhələlərində və atributlarında ingilis və azərbaycanlılarda oxşar məqamlar olsa da, onların hər birinin sırf milli özəllikləri var. Hazırda toyun keçirilmə vaxtında əvvəlki dövrlərdən fərqli olaraq məhdudiyyət yoxdur, yəni toy payızda təsərrüfat işləri başa çatdıqdan sonra deyil, ilin istənilən vaxtında keçirilə bilir. Bununla belə qeyd etmək lazımdır ki, ingilislər hələ də may ayında nadir hallarda toy edirlər. Maraqlıdır ki, Azərbaycanda da nədənsə may ayında az toy edilir və bunun nə dini baxımdan, nə də adət-ənənələrlə bağlı heç bir əsası yoxdur.

Nəzərdən keçirdiyimiz "toy" linqvokulturoloji konsepti mürəkkəb freym strukturuna malikdir. Nəzərdən keçirdiyimiz hər iki mədəniyyətdə «toy»un öz milli spesifik xüsusiyyətlər var və bu xüsusiyyətlər bilavasitə dərin fəlsəfi ənənələr, mentallıq, dini inanclar, bütövlükdə cəmiyyətin quruluşu və strukturu ilə bağlıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopediyası. IX cild. Bakı: 1986.
2. Aşıq Ələsgər. Birinci kitab. Bakı: Elm, 1973.
3. Aşıq Ələsgər. İkinci kitab. Bakı: Elm, 1973.
4. Üzeyir Hacıbəyli. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005.

THE CONCEPT OF “WEDDİNG” İN THE ENGLİSH AND AZERBAİJANİ LİNGUOCULTURAL SPACE

SUMMARY

One of the key concepts shared by all nations is “wedding”. The main stages of a wedding include choosing a girl, matchmaking, marriage, the wedding ceremony itself, and others, which in different nations coincide with the main stages, but in each specific linguocultural space they have their specific characteristics. A comparative analysis of English and Azerbaijani weddings shows that, despite the similarity of goal setting (creating a family), each of these rituals has its own specific, national characteristics.

Key words: *wedding, concept, linguoculturology, engagement, marriage, choice of girl.*

КОНЦЕПТ “СВАДЬБА” (WEDDING) В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКОМ ПРОСТРАНСТВЕ

РЕЗЮМЕ

К числу ключевых концептов, характерных для всех народов, является «свадьба». К основным этапам свадьбы относятся выбор девушки, сватовство, бракосочетание, сам обряд свадьбы и другие, которые у разных народов в основных этапах совпадают, но в каждом конкретном лингвокультурологическом пространстве имеют свои специфические особенности. Сравнительный анализ английской и азербайджанской свадьбы показывает, что при схожести целеполагания (создание семьи) каждая из этих обрядов имеет свои специфически, национальные особенности.

Ключевые слова: *свадьба, концепт, лингвокультурология, обручение, брак, выбор девушки*.